

# Şərq qapısı

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 89 (23.976)

14 may 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinə 6 yeni elektrobus gətirilib





"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikada şəhərdaxili və rayonlararası nümunəvi sərnişindaşıma xidməti həyata keçirilir, müasir avtobuslar və elektrobuslar alınaraq xəttə buraxılır. Bu da vətəndaşların rahatlığına, eləcə də ekoloji təhlükəsizliyə xidmət edir.

Mayın 13-də "Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti" publik hüquqi şəxsinə 6 yeni elektrobus təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

"Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti" publik hüquqi şəxsin direktoru Əli Hüseynəliyev çıxış edərək demişdir ki, muxtar respublikada müasir standartlara cavab verən yolların çəkilməsi, bütün xidmət imkanlarına malik avtovağzalların tikilməsi və ya yenidən qurularaq istifadəyə verilməsi, beynəlxalq marşrutlarda, eləcə də Naxçıvan şəhərdaxili marşrutunda iritutumlu, yüksək komfortlu avtobusların gətirilərək xəttə salınması sərnişindaşıma xidmətinin səviyyəsini yüksəltmişdir. İctimai nəqliyyatda xidmətin keyfiyyətinə və xəttə buraxılan avtonəqliyyat vasitələrinin texniki cəhətdən sazlığına mütəmadi nəzarət olunur, əhaliyə göstərilən avtonəqliyyat xidmətinin səviyyəsi yüksəldilir. Görülən işlərin davamı olaraq Çin Xalq Respublikasının istehsalı olan 6 "King Long" markalı elektrobus alınıb gətirilmişdir. Əli Hüseynəliyev muxtar respublikada nəqliyyat xidmətinin inkişafına göstərilən qayğıya görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu gün muxtar respublikada bütün yaşayış məntəqələrini əhatə edən nəqliyyat xidməti həyata keçirilir. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində 70-ə yaxın avtobus vasitəsilə əhaliyə sərnişindaşıma xidməti göstərilir, hər gün minlərlə insan şəhərdaxili marşrutlardan istifadə edir. Ona görə də bu sahədə işlər dövrün tələblərinə uyğun qurulmalı, avtobuslar daim yenilənməli və müasirləşməlidir.



Bu gün dünyada ekoloji problemlərə diqqət artırılıbdır. Dünya ekosistemində mütəxəssislərin verdiyi rəyə görə karbon qazı özünün son həddinə yaxınlaşmışdır. Ona görə də müxtəlif tədbirlər görülməlidir. Bunlardan biri də elektriklə işləyən nəqliyyat vasitələrinə üstünlük verilməsindən, eləcə də ərazilərin yaşıllığının qorunması və artırılmasından ibarətdir. Muxtar respublikada da bu istiqamətdə tədbirlər görülür, yaşıllıq sahələri artırılır, təbiət qorunur. Artıq elektriklə işləyən avtobusların alınmasına da başlanılmışdır. Naxçıvan şəhərinin nəqliyyat sisteminə uyğun olduğuna görə elektrobuslar şəhər marşrutlarında istifadə olunacaqdır.

Ali Məclisin Sədri demişdir: Elektrobuslar müasir sərnişindaşımada xidməti göstərməklə bərabər, ekologiyanın da çirklənməsinin qarşısını alır. Bütün bunlar nəzərə alınaraq "Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti" publik hüquqi şəxsinə kredit ayrıldı və elektrobusların alınması təmin olundu. Bu həm də yeni iş yerləridir. Yeni iş yerləri isə ailələrin yaşayışının yaxşılaşması deməkdir. Ona görə də Dövlət Nəqliyyat Xidməti avtobuslara texniki xidmətin vaxtında göstərilməsini təmin etməli, Təhsil Nazirliyi sürücülük və peşə məktəblərində elektriklə işləyən avtobuslar üçün kadr təminatını diqqətdə saxlamalı, tədris proqramında dəyişiklik etməli, Nazirlər Kabineti elektriklə işləyən xidməti avtomobillərin alınmasını təmin etməlidir. Şəhərdaxili marşrutlarda bundan sonra elektriklə işləyən avtobuslara üstünlük verilməli, eyni zamanda yaxın məsafələrdə öz xidmətini həyata keçirən dövlət orqanları üçün də elektriklə işləyən avtomobillər alınmalıdır. Çünki bu nəqliyyat vasitələri həm ekoloji və rentabellik, həm də mütəxəssis yetişdirmək baxımından çox əlverişlidir.

Sonra elektrobuslara baxış olmuşdur. Bildirilmişdir ki, Naxçıvan şəhərində sərnişindaşıma xidməti 9 marşrut xəttində 67 avtobusla həyata keçirilir. Bu sahədə xidmətin daha da yaxşılaşdırılması, ekoloji cəhətdən təmiz və ekonom avtomobillərdən istifadə edilməsi məqsədilə şəhərdaxili nəqliyyatda istifadə edilməsi üçün Çin Xalq Respublikasından 6 "King Long 22+1" markalı yeni elektrobus, 5 şarj aləti və ehtiyat hissələr alınmışdır. Elektrobusların və ehtiyat hissələrinin alınması məqsədilə "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti tərəfindən kredit verilmişdir.

Şəhərdaxili yollarda hərəkət üçün xüsusi dizayn olunan elektrobuslara yumşaq oturacaqlar, siyirməli şüşələr, ön, yan və arxa tərəfində elektron məlumat lövhələri quraşdırılmışdır. Elektrobusların hər biri 22-si oturacaq, 36-sı ayaqüstü olmaqla, 58 sərnişin yerlikdir. Şəhərdaxili yollarda hərəkət üçün xüsusi dizayn olunan elektrobusların batareyasının dolma müddəti 100 dəqiqə, dolu batareya ilə gedilən məsafə 160-210 kilometrdir. Elektrobuslarda sərinlədici və qızdırıcı sistem, kamera, sərnişinlərlə əlaqə üçün mikrofon, sağlamlıq imkanları məhdud şəxslərin arabasının mindirilməsi üçün körpü mövcuddur. Yeni elektrobuslarda 12 sürücü işlə təmin olunacaqdır.

Ali Məclisin Sədri elektrobusları idarə edəcək sürücülərin hazırlanması, tələbata uyğun yeni marşrut xətlərinin açılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti**

## Torpaqların su təminatı yaxşılaşdırılır

Naxçıvan Muxtar Respublikasında 2022-ci ilin yeni suvarma mövsümünə start verilmiş, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin tabe təşkilatları tərəfindən aprel ayı ərzində kanallarda, nasos stansiyalarında, təzyiqli boru xətlərində və digər hidrotexniki qurğularda təmir işlərinin aparılması və su anbarlarına suyun yığılması işləri davam etdirilmişdir. Ötən dövrdə su istifadəçilərinə 25,8 milyon kubmetr su verilmiş, bunun müqabilində 21 min 477 hektar torpaq sahəsi suvarılmışdır. Hazırda sututarlarda 142,67 milyon kubmetr su ehtiyatı toplanmışdır.

Ötən ay 23,84 kilometr beton və torpaq kanal, 25,14 kilometr ara arxlar, 0,2 kilometr kollektor lildən təmizlənmiş, 0,49 kilometr içməli su, 0,14 kilometr kanalizasiya, 50,4 kilometr suvarma, 0,52 kilometr təzyiqli boru xətləri çəkilmiş, 0,38 kilometr qapalı drenaj xətti quraşdırılmışdır. 2,32 kilometr mövcud içməli su, 0,1 kilometr kanalizasiya, 2,9 kilometr suvarma, 2,87 kilometr təzyiqli boru xətlərində və 0,49 kilometr kaptajlarda təmir-bərpa işləri aparılmışdır.

Yeni ərazilərin əkin dövriyyəsinə qatılması hesabına suvarılan ərazilərin genişləndirilməsi məqsədilə Babək rayonunun Nehrəm qəsəbəsində 250 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmişdir. Ərazidə 9,91 kilometr paylayıcı xətlər çəkilmiş, diametri 200 millimetr olan 2,95 kilometr uzunluğunda plastik borular qaynaq olunmuş və suvarma boru xətlərinin çəkilişi üçün qazma işləri davam etdirilmişdir. Görülən işlər nəticəsində Sədərək rayonunda 0,7 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Yaşıllıq zolaqlarının suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə Babək rayonu ərazisində Uzunoba gölü yaxınlığında olan təpədə salınmış yaşıllıq zolaqlarının 2,06 kilometr suvarma boru xətlərində təmir-bərpa işləri aparılmışdır. Həmin gölün ətrafında tikilən bağ evlərinin yaxınlığında olan təpədə əlavə 1 terras hazırlanmış, uzunluğu 0,16 kilometr suvarma, 0,5 kilometr isə paylayıcı xətlər çəkilərək burada üzüm bağının salınması işləri başa çatdırılmışdır. Yeni salınmış bağın suvarma suyu ilə təmin edilməsi üçün, ümumilikdə, 0,61 kilometr uzunluğunda suvarma xətti çəkilmiş, 1,7 kilometr uzunluğunda paylayıcı xətlər quraşdırılmaqla bağın damcı üsulu ilə suvarılması üçün əlverişli şərait yaradılmışdır.

Kəngərli rayonunda Şahtaxtı Gömrük İdarəsinə gedən avtomobil yolunun kənarlarında salınmış yaşıllıq zolaqlarını damcı üsulu ilə suvarmaq üçün 37,53 kilometr suvarma boru xətti çəkilmişdir. Ümumilikdə, layihə çərçivəsində yaşıllıq zolağını suvarma suyu ilə təmin etmək üçün 41,28 kilometr suvarma boru xətti quraşdırılmışdır. Kəngərli rayonunun Böyükdüz kəndinin 2200 hektar əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə Araz çayından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi başa çatdırılmışdır.

Ötən ay 5 kəhrizdə təmir-bərpa işləri davam etdirilmiş, 71 subartezian quyusu təmir olunmuşdur. Bundan əlavə, Kəngərli rayonunda Şahtaxtı Gömrük İdarəsinə gedən avtomobil yolunun kənarlarında salınmış yaşıllıq zolaqlarını suvarma suyu ilə təmin etmək üçün 1 subartezian quyusu tikilərək istifadəyə verilmiş, "Qabıllı Quşçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətini içməli və təsərrüfat suyu ilə təmin etmək məqsədilə 1 subartezian quyusunun tikintisi davam etdirilmişdir.

Culfa rayonunun Yaycı kəndində əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə su təchizatı şəbəkəsinin tikintisi davam etdirilmiş, müxtəlif diametrli borularla 10,7 kilometr içməli su xətti quraşdırılmış və 55 evin su xəttinə birləşməsi işləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası
Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar
Cəmiyyətinin mətbuat xidməti***

# Ordubad rayonunun Anaqut kəndində "Xan Çinar" İstirahət Mərkəzi istifadəyə verilib

*Naxçıvan Muxtar Respublikasının zəngin təbiəti, qədim tarixi və maddi mədəniyyət abidələri burada turizmin inkişafı üçün geniş imkanlar açır. Bu istiqamətdə layihələr hazırlanır, yeni istirahət və əyləncə mərkəzləri qurularaq sakinlərin istifadəsinə verilir. Bu tədbirlərin davamı kimi, mayın 13-də Ordubad rayonunun Anaqut kəndində "Xan Çinar" İstirahət Mərkəzinin açılış mərasimi keçirilib.*





Açılış mərasimində Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edərək bildirib ki, muxtar respublikamızda həyata keçirilən kompleks quruculuq işləri Ordubad rayonunu da ağuşuna alıb. Yeni yolların çəkilişi, məktəblərin tikintisi uğurla davam etdirilir. Ordubad və Tivi Su Elektrik stansiyalarının tikintisi və digər layihələrin həyata keçirilməsi də rayonun sosial-iqtisadi inkişafına mühüm töhfədir. Müasir infrastrukturla təchiz edilən istirahət məkanının istifadəyə verilməsi isə yurdumuza gələn turistlərin təəssüratlarını daha da zənginləşdirəcək, onları tariximiz, mədəniyyətimiz, adət-ənənələrimiz və zəngin mətbəximizlə yaxından tanış edəcək.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev bildirib ki, Naxçıvanın turizm potensialından maksimum istifadəyə yönələn tədbirlər ardıcıl şəkildə davam etdirilir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı" təsdiq edilib, proqramda nəzərdə tutulan tapşırıqların icrası diqqətdə saxlanılıb. Ordubad rayonunun Anaqut kəndinin əlverişli təbii-coğrafi şəraiti nəzərə alınaraq burada "Xan Çinar" İstirahət Mərkəzi yaradılıb. Bu isə əhalinin sosial-iqtisadi inkişafında, məşğulluğunun təmin olunmasında, təbii-iqtisadi imkanlardan geniş istifadə edilməsində əhəmiyyətli rol oynayır.

Qeyd olunub ki, tikintisinə 2021-ci ilin fevral ayından başlanılan "Xan Çinar" İstirahət Mərkəzinin sahəsi 30 min kvadratmetrdir. Mərkəzdə istirahətin səmərəli təşkili üçün ikimərtəbəli kotejlər, uşaqların istirahətlərini mənalı keçirmələri üçün attraksionlar, istirahət guşələri, kupelər və restoran vardır. Mərkəzin yaradılmasına 750 min manat vəsait sərf olunub ki, onun da 150 min manatı Sahibkarlığın İnkişafı Fondunun, 600 min manatı isə sahibkarın daxili imkanları hesabına sərf olunmuş vəsaitdir.

Diqqətə çatdırılıb ki, 1550 kvadratmetr sahədə tikinti işləri aparılıb, burada Türkiyə və Çin mənşəli avadanlıqlar quraşdırılıb. 1230 kvadratmetr ərazidə mərkəz üçün 9 ədəd 2 mərtəbəli kotej, qonaqların istirahəti üçün 220 yerlik söhbətgah, hər biri 10 nəfərlik olmaqla, 4 ədəd kupe, 40 yerlik restoran, mətbəx, attraksion, mağaza, iş otağı və digər köməkçi sahələr var. Mərkəzdə 20 yeni iş yeri yaradılıb, işçilər nahar yeməyi və xüsusi geyim formaları ilə təmin olunublar. Mərkəzdə işıqlandırma sistemi, təhlükəsizlik kameraları və Wi-Fi daxili rabitə quraşdırılıb, ərazi abadlaşdırılıb.

İqtisadiyyat naziri Tapdıq Əliyev "Xan Çinar" İstirahət Mərkəzinin kənd turizminin inkişafındakı böyük rolunu nəzərə alaraq sakinlərə, eləcə də bura gələn qonaqlara milli mətbəx nümunələrimizin tanıdılması, təbliğ olunması və yüksək xidmətin göstərilməsi, mərkəzdə fəaliyyət göstərən mağazada yerli istehsal məhsullarına, o cümlədən ailə təsərrüfatı məhsullarına üstünlük verilməsi, məhsulların keyfiyyətinə, qiymətinə nəzarət edilməsi istiqamətində tapşırıqlar verib, muxtar respublikanın sosial-iqtisadi tərəqqisinə, sahibkarlıq fəaliyyətinin inkişafına, turizm potensialının və əhali rifahının yüksəldilməsinə göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov turizmin inkişafı üçün yaradılan münbit şəraitdən danışıb. Vurğulayıb ki, istirahət mərkəzinin istifadəyə verilməsi Naxçıvanın turizm potensialını artırmaq və muxtar respublikamıza gələn qonaqların istirahətini mənalı təşkil etmək baxımından mühüm əhəmiyyət kəsb edir.

"Xan Çinar" İstirahət Mərkəzinin sahibkarı Elxan Hacıyev göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq edib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Enerji təhlükəsizliyi sahəsində görülən işlər bundan sonra da regionda sabitlik və inkişafın təmin olunmasına öz töhfəsini verəcək

*"Enerji təhlükəsizliyi" anlayışı qlobal məkanda son 50 ilin daha çox işlədilən ifadəsi olsa da, vahid konseptual mənada ona hələ ki, tərif verilməyib. Bir çox kateqoriyalarda texniki, sosial-iqtisadi, siyasi-fəlsəfi mənalar daşısa da, enerji təhlükəsizliyi energetikanın texniki təyinatı olma reallığından daha çox irəli gedib. Çünki bu gün müasir dünyada enerji təhlükəsizliyi milli iqtisadiyyatın müstəqilliyinin, dayanıqlılığının və inkişafının təminatçısı olduğu kimi, ölkələrin və xalqların xarici təhlükələrə qarşı müqavimətini də həyata keçirən çox mühüm strateji konsepsiyadır. Diqqət edilməli əsas məsələ odur ki, təbii enerji xammalı bütün dünyada bərabər paylanılmayıb. Eyni zamanda bu gün zəngin təbii ehtiyatlara malik elə ölkələr var ki, heç də bu potensialından tam istifadə edə bilmir və yaxud əksinə, elə ölkələr də var ki, kifayət qədər ehtiyata malik olmasa da, özünün enerji diversifikasiyasını tənzimləyə bilir. Deməli, əsas məsələ qətiyyət, məqsədyönlülük və milli maraqların qorunmasıdır. Məhz bütün bu tərəflərini nəzərə aldıqda bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən enerji layihələrinin gələcəyə doğru hesablanmış böyük işlər olduğunu görməkdəyik. Xüsusilə son illərdə Naxçıvan Muxtar Respublikasında bərpa olunan enerji mənbələri üçün qoyulan investisiyalar bu işin mahiyyətini bütün aydınlığı ilə ortaya çıxarır. Bir neçə gün bundan əvvəl Şərur rayonunda istifadəyə verilən növbəti Günəş Elektrik Stansiyası da bu istiqamətdə görülən işlərin davamıdır.*



Stansiyanın açılış mərasimində verilən məlumatlar, sözün əsl mənasında, muxtar respublikada mühüm energetika infrastrukturunun yaradıldığını göstərir. Həmin məlumatlardan öyrəndik ki, muxtar respublikada ümumi qoyuluş gücü 240,5 meqavat olan 11 elektrik stansiyası vardır ki, onlardan ümumi qoyuluş gücü 103,5 meqavat olan 9-u bərpa olunan enerji mənbələri hesabına fəaliyyət göstərir. Məlumat verildi ki, Şərur rayonunun Zeyvə kəndində 35 hektar əkinəyararsız torpaq sahəsinin 15 hektarı bu iş üçün ayrılıb. Həmin ərazinin 7,9 hektarı ilk tikilən



5 meqavatlıq, 4,25 hektarı isə yeni tikilən 3 meqavat gücündə Günəş Elektrik Stansiyası üçün istifadə edilib. İsveçrənin "Pure Energy Development" SARL şirkəti ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti arasında imzalanan müqaviləyə əsasən hər birinin gücü 330 vatt olan 9108 "PERC" tipli müasir "şüşə-şüşə" formalı günəş panelləri, hər birinin gücü 50 kilovat olan 60 invertor, müasir tip kommutasiya aparatları və transformator yarımstansiyaları quraşdırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Zeyvə Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi münasibətilə çıxış edərkən zəruri faktlar səsləndirdi. Məlum oldu ki, hazırda muxtar respublikada elektrik enerjisinə olan tələbatın 60 faizə yaxını bərpa olunan enerji ilə təmin edilir. Ümumilikdə isə muxtar respublikanın təbii resurslarından istifadə edərək elektrik enerjisinə olan tələbatı tamamilə bərpa olunan enerji mənbələri hesabına ödəmək mümkündür. Belə ki, hazırda Ordubad rayonunda iki su elektrik stansiyasının qurulması davam etdirilir və yaxın zamanlarda istifadəyə veriləcəkdir. Bundan əlavə, Culfa rayonunda 1,1 meqavatlıq Külək Günəş Hibrid Elektrik Stansiyası artıq istifadəyə verilib. 10 yeni Külək Elektrik Stansiyasının qurulmasına isə qısa zamanda başlanılacaqdır. Eyni zamanda qarşıdakı illərdə hər birinin gücü 1,5 meqavat olan 5 külək elektrik stansiyasının qurulması da nəzərdə tutulub. Maraqlı faktlardan biri də bu oldu ki, istifadəyə verilən yeni Günəş Elektrik Stansiyası ilə muxtar respublikanın Günəş elektrik stansiyalarının gücü 36 meqavata, illik istehsal gücü isə 55 milyon kilovat-saata çatdırılacaqdır. Bu da, ümumilikdə, muxtar respublikada enerji istehsalının 11 faizə yaxınını təşkil edəcəkdir.

Ali Məclis Sədrinin həmin tədbirdə dediyi ***"İnsanların həyatını ərzaqsız təsəvvür etmək mümkün olmadığı kimi, enerjisiz də təsəvvür etmək mümkün deyil"*** dəyərli fikirləri müasir dövrün enerji reallıqlarını özündə əks etdirən ən məntiqli müqayisədir! Çünki dünya inkişaf etdikcə, enerjiyə olan ehtiyac da artır və iqtisadiyyat getdikcə daha çox enerjidən asılı vəziyyətə düşür. Digər tərəfdən enerji təhlükəsizliyi strateji amil kimi hər keçən gün daha çox ön plana keçir.



Son dövrlərin silahlı münaqişələri də göstərir ki, enerji təhlükəsizliyi artıq milli təhlükəsizliyin bir elementinə çevrilib. Bütün bu amilləri nəzərə aldıqda muxtar respublikada etibarlı enerji təhlükəsizliyi infrastrukturunun yaradılmasının necə böyük əhəmiyyət daşıdığının bir daha şahidi oluruq.

Məlumat üçün bildirək ki, energetika sektorunda İsveçrənin tanınmış "Pure Energy Development" SARL şirkəti artıq bir neçə ildir, muxtar respublikada bərpa olunan enerji layihələrinin reallaşdırılmasında yaxından iştirak edir. Şirkətin icraçı direktoru Mişel Kaleraminin muxtar respublikada bu istiqamətdə görülən işləri yüksək səviyyədə qiymətləndirməsi də təqdirəlayiqdir: "Artıq 2014-cü ildən etibarən Naxçıvandayam. Bu illər ərzində Naxçıvanda kompleks inkişafın şahidi olmuşam. Heç şübhə yoxdur ki, Naxçıvan Ali Məclis Sədrinin rəhbərliyi altında gələcəkdə daha çox uğurlara imza atacaqdır. Naxçıvanın coğrafi mövqeyi və iqlim şəraiti muxtar respublikada alternativ enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Təsadüfi deyil ki, Naxçıvan alternativ enerji üzrə regionda lider hesab olunur. Əminəm ki, muxtar respublika rəhbərinin dəstəyi ilə Naxçıvan qısa zamanda "Yaşıl enerji" zonasına çevriləcəkdir".

Şərur rayonunda yeni Günəş Elektrik Stansiyasının açılış mərasimində söylənilən hər bir fikir mühüm nəticələrə gəlməyə imkan verir. Belə nəticələrdən biri odur ki, muxtar respublikada bərpa olunan enerji mənbələrindən istifadə dövlətin diqqət mərkəzindədir, bu sahədə son illər çox mühüm addımlar atılır və həyata keçiriləcək bir çox layihələr var. Görülən bu işlərin nəticəsidir ki, hazırda muxtar respublika bərpa olunan enerji üzrə regionda öz liderliyini qoruyub saxlayır. Digər tərəfdən muxtar respublikada enerji istehsalının həcminin artması region iqtisadiyyatının dayanıqlı inkişafını şərtləndirir. Bu isə o deməkdir ki, Naxçıvanda iqtisadi sahələri (xüsusilə istehsalyönümlü) inkişaf etdirmək üçün potensial böyükdür və istehsalın genişlənməsi xaricdən heç bir enerji asılılığı yaratmır. Bundan əlavə, Naxçıvan ötən dövrdə təkcə müasir energetika infrastrukturu yaratmayıb, həm də partnyorluq etdiyi enerji şirkəti tərəfindən etibarlı tərəfdaş kimi tanınıb. Bu isə müasir dövrdə çox mühüm amildir. Nəhayət, muxtar respublika enerji istehsalını artıraraq onu ixrac etməyə başlayıb ki, bu da Naxçıvanın elektrik enerjisi ixracatçısı kimi tanınmasını şərtləndirib. Daha bir başlıca mühüm nəticə odur ki, muxtar respublikanın enerji təhlükəsizliyi sahəsində görülən işlər bundan sonra da regionda sabitlik və inkişafın təmin olunmasına öz töhfəsini verəcək.

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Ötən ay 44 mənzil və müxtəlif təyinatlı obyekt qazlaşdırılıb

Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında yaşayış məntəqələrinin və istehsalat sahələrinin fasiləsiz və təhlükəsiz təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür. Muxtar respublikanın şəhər və rayon ərazilərindən aprel ayı ərzində daxil olan müraciətlərə əsasən cəmi 44 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 39-u əhali, 5-i isə qeyri-əhali abonentləridir.

Ötən ay qaz təsərrüfatında, xüsusilə qaza sahəsində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunmasına diqqət artırılaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində təhsil alan "Qaz avadanlıqlarının istismarı və təmiri üzrə qaz paylayıcı stansiyalarının operator peşəsi" üzrə ixtisasartırma kursu başa çatmışdır. Kursu bitirən 10 müdavimə sertifikat verilmişdir.

Muxtar respublikada əhali qrupundan olan abonentlərin mexaniki qaz sayğaclarının kənar müdaxilələrdən qorunması üçün cari ilin aprel ayında 15 mühafizə qutusu quraşdırılmışdır. Hesabat dövründə Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismar idarələrinin qəza-dispetçer sahələrinə, ***104*** nömrəli 24 saat aktiv olan qaynar xəttinə təbii qaz istehlakçılarından qaz sızması, qaz tənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə, ümumilikdə, 948 çağırış daxil olmuşdur. Çağırışlara vaxtında gedilmiş, təbii qazın nəqli bərpa olunmuşdur.

Aprel ayında muxtar respublika qaz şəbəkəsində 692 qaz sızması aşkarlanmış, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq bu sızmalar aradan qaldırılmış, ay ərzində yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar olaraq müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə olunmuşdur.

Muxtar respublikada yerli qaz istismarı idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

## “Şahin” hərbi-idman oyununda ölkə üçüncüsü olan “Ordubad” komandasının üzvləri mükafatlandırılıb



Məktəblilərin ordu sıralarında hərbi xidmətə hazırlanmasına köməklik göstərilməsi məqsədilə təşkil olunan “Şahin” hərbi-idman oyunu üzrə Azərbaycan birinciliyinin final mərhələsi keçirilib. Bakı şəhərində – Hərbi Qənimətlər Parkının yanında ayrılmış xüsusi ərazidə keçirilən yarışda müxtəlif bölgələrdən 18 komanda qələbə uğrunda mübarizə aparıb. Yarışa muxtar respublika mərhələsinin qalibi kimi qatılan “Ordubad” komandası uğurlu nəticəyə müvəffəq olub. Təmsilçimiz 3-cü yerə sahib çıxaraq mükafatçılar sırasına düşüb. “Şahin” hərbi-idman oyununda qalib olan komandanın üzvləri Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən mükafatlandırılıb.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov təhsilə göstərilən dövlət qayğısından danışıb. Bildirilib ki, bu gün muxtar respublikada şagirdlərin təhsili ilə yanaşı, onların hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması da daim diqqət mərkəzində saxlanılır. Ümumtəhsil məktəbləri inşa olunarkən şagirdlərin hərbi hazırlığının və vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi məqsədilə məktəblərdə hərbi kabinələr yaradılır. Ölkə başçısının Sərəncamı ilə yaradılan Heydər Əliyev adına Hərbi Lisey də ölkəmizdə ixtisaslı hərbçi kadr hazırlığına öz töhfəsini verir. Burada oxumaq istəyənlərin sayında hər il artım müşahidə olunur. Elə 44 günlük Vətən müharibəsində də liseyin məzunları torpaqlarımızın azad olunmasında böyük şücaət göstərdilər.

Qeyd olunub ki, Gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisi şagirdlərin milli mənlik və vətənpərvərlik ruhunda böyüməsində böyük rol oynayır. Elə bu məqsədlə də ümumtəhsil məktəblərində hərbi hazırlıq və idman dərslərinə mühüm əhəmiyyət verilir. Bunun nəticəsidir ki, son illər gənclər arasında hərbi təhsilə maraq xeyli artıb. 2021-ci tədris ilində muxtar respublikanın ümumtəhsil məktəblərindən Heydər Əliyev adına Hərbi Liseyə 156, Ali Hərbi məktəblərə 124, Xüsusi təyinatlı məktəblərə isə 32 şagird qəbul olunub.

Təhsil naziri diqqətə çatdırıb ki, muxtar respublikanın şagirdləri hərbi-vətənpərvərlik istiqamətində keçirilən yarışlarda da yüksək nəticə əldə edirlər. Ordubad rayonunun Sabirkənd tam orta məktəbinin komandası “Şahin” hərbi-idman oyununda ölkə üçüncüsü olmaqla bunu bir daha təsdiq etdi. Nazir komandanın üzvlərinə, məktəbin kollektivinə və hərbi rəhbəri Aləm Hacıyevə təşəkkür edib, onlara uğurlar arzulayıb.

Məktəbin hərbi rəhbəri Aləm Hacıyev hərbi rəhbərlərin peşəkarlıq səviyyələrinin artırılması istiqamətində muxtar respublikada görülən işlərin nəticəsiz qalmadığını bildirib, göstərilən dövlət qayğısına görə minnətdarlıq edib.

Sonda komandanın üzvlərinə Təhsil Nazirliyinin təşəkkürnamələri təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Beynəlxalq Ailə Günü qeyd olunub





*Mayın 13-də Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 15 may – Beynəlxalq Ailə Günü münasibətilə tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan, hazırda Prezident cənab İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən ailə siyasəti tarixi keçmişimizə, min illərdən süzülüb gəlmiş milli-mənəvi dəyərlərimizə və əsrlərlə formalaşmış ailə münasibətlərinə əsaslanır.

Qeyd edilib ki, ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da dövlət ailə siyasəti uğurla həyata keçirilir. Bu siyasət hər bir ailənin yaşayış səviyyəsinin yüksəldilməsinə, xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Muxtar respublikada yaşayan xüsusi qayğıya ehtiyacı olan ailələrə mütəmadi olaraq baş çəkilir, onlara bayram günlərində hədiyyələr təqdim olunur, müavinətlər verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısının nəticəsi olaraq muxtar respublikada müharibə veteranlarına, şəhid ailələri və hərbi xidmət zamanı sağlamlığını qismən itirmiş vətəndaşlara, eləcə də hərbi qulluqçuların, səmərəli fəaliyyət göstərən şəxslərin ailələrinə mənzillər verilir.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq muxtar respublikanın rayon və kəndlərində qadınlar və gənclər arasında müvafiq mövzularda konfranslar, seminarlar keçirilir, yazı və rəsm müsabiqələri təşkil edilir, eləcə də kütləvi informasiya vasitələrində müntəzəm çıxışlar edilir, maarifləndirici tədbirlər görülür. Həmçinin qadınların məşğulluqlarının artırılması sahəsində sərgi-satışların keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikamızda milli-mənəvi dəyərlərə bağlı olan, adət-ənənələri dərindən mənimsəyən nümunəvi uzunömürlü ailələrimizin hər il evlilik yubileyləri qeyd olunur.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev qeyd edib ki, ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial müdafiəsinin gücləndirilməsi diqqət mərkəzində saxlanılır. Bu sahədə görülən işlər çərçivəsində təkcə ötən il 28 şəhid ailəsi mənzillə, müvafiq kateqoriyadan olan 28 nəfər avtomobillərlə təmin olunub, cari ildə isə daha 20 ailəyə mənzil və avtomobillər təqdim edilib. Postmüharibə dövründə, ümumilikdə, 126 şəhidin 251 ailə üzvünə vəsiqələr verilib, 279 şəhid ailəsi üzvünə Prezident təqaüdü, 39 uşaq üçün sosial müavinət, 3 nəfərə Vətən Müharibəsi Qəhrəmanı üçün Prezident təqaüdü təyin edilib. Həmçinin müddət ərzində ailə üzvlərində müharibə iştirakçısı üzvü olan 78 ailə özünüməşğulluq proqramına cəlb edilib.

Nazir Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın uğurlu icrasının əhalinin maddi rifah halının yüksəlməsinə əhəmiyyətli təsir göstərdiyini bildirib.

Çıxışlarda ailələrə göstərilən hərtərəfli dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq bildirilib.

Sonra uzunömürlü ailənin, şəhid ailəsinin, hərbçi ailəsinin, ailə təsərrüfatı ilə məşğul olan ailənin üzvlərinin çıxışları dinlənilib. Çıxış edənlər onlara göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıq ifadə ediblər. Ailə üzvlərinə hədiyyələr təqdim edilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü, sənətşünas alim, müsabiqənin münsiflər heyətinin üzvü Nizami Alıyev çıxış edərək “İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik” mövzusunda IX muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqəsinə marağın çox böyük olduğunu bildirib, qalibləri təbrik edib. Sonra sözügedən müsabiqənin qalibləri diplom və hədiyyələrlə mükafatlandırılıb. Tədbirdə müsabiqə qaliblərinin əl işləri sərgilənib.

Sonda Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının mahnı və rəqs qrupunun, 11 nömrəli uşaq bağçasının balaca fidanlarının və nümunəvi musiqiçi ailəsinin ifasında musiqi nömrələri dinlənilib.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Operativ vergi nəzarəti tədbirləri davam etdirilir



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən aprel ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 82 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Operativ vergi nəzarəti tədbirləri zamanı həmin vergiödəyicilərində “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğul olma faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## “Heydər Əliyev kuboku” uğrunda yarışlar yekunlaşıb



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilən boks üzrə “Heydər Əliyev kuboku” uğrunda yeniyetmə və gənclər arasında keçirilən Naxçıvan Muxtar Respublika turnirinin yekun tədbiri olub.*



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyasının birgə təşkil etdiyi turnirin açılış mərasimində öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Musiqi və Rəqs Ansamblının bir-birindən rəngarəng çıxışları tamaşaçı alqışları ilə qarşılanıb.

Ardınca final görüşlərinə start verilib. 7 komandanın 90-a yaxın dəri əlcək sahibi 16 çəki dərəcəsində qalibi müəyyənləşdirməyə çalışıb. Olimpiya sistemi üzrə keçirilən turnirin yekun nəticəsinə əsasən Rəhim Süleymanov (38 kiloqram), Fikrət Abbaslı (40 kiloqram), Sənan Muxtarov (42 kiloqram), Ucar Musayev (46 kiloqram), Uğur Əliyev (48 kiloqram), Məhəmməd Əliyev (50 kiloqram), Məhəmmədəli Qasımov (52 kiloqram), Elbrus Kərimli (54 kiloqram), Murad Babazadə (57 kiloqram), Elgün Rzalı (60 kiloqram), Sərvan Abdullazadə (63 kiloqram), Nadir Cəfərov (67 kiloqram), Nofər Əlizadə (71 kiloqram), Türkeş Mustafayev (75 kiloqram), Kənan Allahverdiyev (80 kiloqram) və Sərvər Abdullayev (80+ kiloqram) öz çəki dərəcələrində turnirin qalibi adını qazanıblar.

Fəal iştiraklarına görə qızlar arasında Lalə Namazlı və Gülay Hümbətova da mükafata layiq görülüblər. Komanda hesabında “Heydər Əliyev kuboku”nu “Naxçıvan” komandası qazanıb.

Sonda qaliblər mükafatlandırılıb. Mükafatları Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı və Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədri Məhərrəm Talıbov təqdim ediblər.

* * *



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar və məhdud fiziki imkanlı şəxslər arasında “Heydər Əliyev kuboku” uğrunda boccia idman növü üzrə Naxçıvan Muxtar Respublika turniri keçirilib.

Turnirin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı bildirib ki, ölkəmizdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Muxtar respublikada müasir idman obyektləri, o cümlədən olimpiya idman komplekslərinin, idmanın müxtəlif növləri üzrə federasiyaların yaradılması gənclərin idmana olan marağını artırıb, istedadlı idmançıların yetişməsi təmin olunub.

Ramil Hacı yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının sədri Nicat Babayev çıxışında vurğulayıb ki, muxtar respublikamızda idmanın inkişafı istiqamətində görülən işlər çərçivəsində son dövrlərdə Paralimpiya Federasiyasının da yeni bölmələri istifadəyə verilmiş, mövcud bölmələrin maddi-texniki təchizatı yaxşılaşdırılmışdır. Ümumilikdə, 2006-cı ildən fəaliyyət göstərən federasiyanın hazırda 16 bölməsinin imkanlarından, təqribən, 300-ə yaxın paralimpiyaçı istifadə edir.

Diqqətə çatdırılıb ki, paralimpiya idman növlərindən boccianın muxtar respublikada təbliğinə və inkişafına xüsusi diqqətlə yanaşılır. Bu gün muxtar respublikanın bütün şəhər və rayonlarında boccia bölmələri fəaliyyət göstərir. Bölmələr məşqlərin aparılması üçün zəruri olan xüsusi top dəstləri və digər idman vasitələri ilə təmin edilib. Həmçinin Naxçıvan şəhərində yerləşən Uşaq Bərpa Mərkəzinin idman zalında müvafiq kateqoriyadan olan uşaqların məşq etmələri üçün hər cür şərait yaradılıb. Bu tədbirlərin davamı olaraq bu günlərdə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin baş katibi İlham Məhərrəmovun muxtar respublikaya növbəti səfəri təşkil olunub, onun iştirakı ilə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının yerli bölmələrinin rəhbərləri və məşqçiləri üçün seminar keçirilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Boccia İdman Federasiyasının baş katibi, Azərbaycan Milli Paralimpiya Komitəsinin boccia idman növü üzrə milli komandasının baş məşqçisi İlham Məhərrəmov muxtar respublikaya növbəti səfərindən məmnunluğunu bildirib. O qeyd edib ki, muxtar respublikada paralimpiya idman növlərinə, o cümlədən boccia idman növünə maraq günü-gündən artmaqdadır.

Çıxışlardan sonra idman müsabiqəsinin ən aşağı yaş qrupu üzrə final görüşü keçirilib. Ardınca sağlamlıq imkanları məhdud ifaçılardan ibarət “İnam” musiqi qrupunun, həmçinin Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı üzvlərinin çıxışları alqışlarla qarşılanıb.

Müasir Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş Vətən müharibəsi iştirakçılarının da dəvət olunduğu turnirin yekun nəticəsinə əsasən 9-13 yaş qrupunda Mikayıl İsmayıllı, 13-17 yaş qrupunda Cəlal Mürsəlli, məhdud fiziki imkanlı şəxslər arasında isə İlqar Yunisov qalib adını qazanıb.

Sonda qaliblər mükafatlandırılıb. Eyni zamanda Azərbaycan Respublikası Boccia İdman Federasiyasının baş katibi İlham Məhərrəmov Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının fəaliyyətinə göstərdiyi dəstəyə görə təltif olunub.

**Ceyhun MƏMMƏDOV**

## “Milli dəyərlərimiz folklorumuzda” müsabiqəsinin yekun tədbiri keçirilib

*Mayın 13-də Naxçıvan Dövlət Uşaq Teatrında “Milli dəyərlərimiz folklorumuzda” adlı səhnəciklərin nümayişi müsabiqəsinin yekun tədbiri keçirilib.*



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova açaraq bildirib ki, qədim diyarımızda xalqımızın milli mədəniyyətinin öyrənilməsi və yaşadılmasına böyük dövlət qayğısı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 9 fevral tarixli Sərəncamına uyğun olaraq muxtar diyarımızın bütün bölgələrində və Naxçıvan şəhərində vaxtaşırı ənənəvi “Xalq yaradıcılığı günləri”nin keçirilməsi bunun bariz ifadəsidir. Muxtar respublika rəhbərinin böyük diqqət və qayğısı ilə qədim diyarımızın şifahi söz sənətini özündə əks etdirən 3 cildlik “Naxçıvan folkloru antologiyası”, “Naxçıvan-Şərur el yallıları”, “Yallılar dünəndən bu günə” kitabları işıq üzü görmüş, 100-ə yaxın yallının reyestri aparılmış, yallıların DVD diski hazırlanmışdır. Bütün bunlar muxtar diyarımızda xalq yaradıcılığı nümunələrinin kütləvi şəkildə öyrənilməsi və təbliği işinə böyük töhfələr verir.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və nazirliyin tabeliyindəki Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin təşkilatçılığı ilə keçirilmiş “Milli dəyərlərimiz folklorumuzda” adlı səhnəciklərin nümayişi müsabiqəsinin təşkilində əsas məqsəd müxtəlif yaşayış məntəqələrində fəaliyyət göstərən folklor qrup və kollektivlərinin fəaliyyətinin artırılması, bölgələr üzrə xalq yaradıcılığı nümunələrinin aşkara çıxarılması və təbliğindən ibarət olub. Muxtar respublikanın rayon (şəhər) mədəniyyət şöbələrinin tabeliyindəki klub müəssisələrində fəaliyyət göstərən 12 folklor kollektivinin iştirak etdiyi müsabiqədə yalnız milli adət-ənənələri, milli dəyərləri və xalq yaradıcılığı nümunələrini özündə ehtiva edən səhnəciklər nümayiş etdirilib.

Nazir incəsənətin bütün sahələrinin təbliğinə və yaşadılmasına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə mədəniyyət işçiləri adından minnətdarlığını bildirib.

Sonra AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, dosent Aytən Cəfərova “Folklorumuzda yaşayan mədəniyyət tariximiz” mövzusunda çıxış edib.

Çıxışlardan sonra müsabiqədə qalib olan kollektivlər – “Xınayaxdı mərasimi” səhnəciyi ilə I yerin qalibi Babək Rayon Mədəniyyət Sarayının “Buta” folklor qrupu, “Gəlin-qayınana səhnəciyi” ilə II yerə layiq görülmüş, Culfa Rayon Kırna Kənd Mədəniyyət Evinin “Güləbətin” folklor kollektivi və “Xınayaxdı mərasimi” səhnəciyi ilə III yeri tutmuş Şahbuz Rayon Mədəniyyət Sarayının “Salvartı” folklor kollektivi nazirliyin diplomları və “Gəlinköçürmə adəti” səhnəciyi ilə müsabiqədə fərqləndiyinə görə Ordubad Rayonunun Vənənd və Dırnıs Kənd Mədəniyyət evləri, Validə Kənd Klubunun “Zirvə” folklor kollektivi fəxri fərmanla təltif edilib.

Sonda qalib kollektivlərin səhnəcikləri nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Təhsil Tələbə Krediti Fondunun (TTKF) İdarə Heyətinin sədri Araz Paşayevin Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərində ali təhsil ocaqlarının tələbələri ilə görüşləri olub.*

## Təhsil Tələbə Krediti Fondunun (TTKF) İdarə Heyətinin sədri ali təhsil ocaqlarının tələbələri ilə görüşüb

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Təhsil Tələbə Krediti Fondunun yaradılmasının əhəmiyyətindən danışıb. Bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 iyun tarixli Fərmanı ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması ali təhsilə və aztəminatlı təbəqədən olan gənclərə dövlət qayğısının bariz nümunəsidir.



Universitetin Mühasibat uçotu şöbəsinin müdiri Ülvi Baxışlı bildirib ki, ali təhsil ocağında 2021-2022-ci akademik tədris ilindən TTKF ilə bağlı komissiyanın tərkibi müəyyənləşdirilərək fəaliyyətə başlayıb və tələbələrlə görüşlər təşkil edilərək onların qeydiyyatına şərait yaradılıb. Belə ki, ötən semestr ərzində, ümumilikdə, 60-a yaxın tələbə kreditlə bağlı müraciət etsə də, bunun 25 nəfəri sosial, 23 nəfəri isə standart olmaqla, 48 tələbənin krediti rəsmiləşdirilib. Hazırda davam etməkdə olan semestrdə bu günədək 50-yə yaxın tələbənin müraciəti qeydə alınıb və ümumilikdə, 24 nəfərin müraciəti rəsmiləşdirilib, 23 tələbə namizəd qismində saxlanılıb, digərləri isə gözləmə mövqeyindədir.

YAP Universitet Ərazi Partiya Təşkilatının sədri, Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayevin və Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanovun çıxışları dinlənilib.

“Naxçıvan” Universitetində keçirilən görüşdə isə universitetin rektoru, dosent Nurlana Əliyeva ölkəmizdə aparılan təhsil islahatları, təhsilin keyfiyyətinin yüksədilməsi istiqamətində görülən işlərdən danışıb. Qeyd olunub ki, fondun təsis edilməsi dövlətin gənclərə olan qayğısının, diqqətinin bariz nümunəsidir.



Hər iki görüşdə çıxış edən Təhsil Tələbə Krediti Fondunun (TTKF) İdarə Heyətinin sədri Araz Paşayev bildirib ki, fondun yaradılmasında əsas məqsəd ali təhsil aztəminatlı təbəqəsindən olan şəxslərin təhsili üçün bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirməkdir. Qeyd edilib ki, təhsil tələbə krediti olduqca mütərəqqi, gənclərin təhsilə əlçatanlılığının təmin olunmasına xidmət edən vasitədir. Araz Paşayev diqqətə çatdırıb ki, fondun fəaliyyəti ölkə üzrə ödənişli və əyani təhsil alan tələbələrə aid olmaqla, 44 ali təhsil müəssisəsini və 55 orta ixtisas təhsili müəssisəsini əhatə edir. Ölkə üzrə, təxminən, təhsil alan 266 min nəfər tələbədən 146 min nəfəri ödənişli əsaslarla oxuyur. Tələbə krediti almaq üçün ödənişli əsaslarla təhsil alandan girov, zamin və digər heç bir öhdəlik tələb olunmur. Ancaq kreditlər veriləndə ilkin mərhələdə giriş balları nəzərə alınmaqla yüksək nəticə göstərilməsi ilkin şərtdir. Araz Paşayev onu da bildirib ki, kredit məbləği birbaşa tələbəyə deyil, ali təhsil aldığı müəssisəyə verilir. Hər hansı səbəbdən götürülən kredit geri qaytarıla bilmədikdə tələbəyə möhlət hüququ da verilir.

Keçirilən görüşlərdə tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

**✍ Gülcamal TAHİROVA**

## Son tur öncəsi şahmatçılarımızdan inamlı qələbə

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş beynəlxalq şahmat turnirində 8-ci turun oyunları keçirilib.*



Naxçıvan şahmatçılarından FIDE ustamız Sadiq Məmmədov (2265) bu tur növbəti qələbəsini qazanıb. O, iranlı Barad Yeganegi (1819) məğlub edib. Eyni uğura beynəlxalq usta Toğrul Həsənzadə (2279) də imza atıb. Zəka sahibimiz İran şahmatçısı Tara Asqarpurmasaleh (1666) qarşısında növbəti xalını qazanıb. Beynəlxalq ustamız Pərviz Qasımov (2331) iranlı Sina Movahed (2051) üzərində parlaq qələbə qazanıb. Digər beynəlxalq ustamız Talıb Babayev (2218) isə Davud Binnətzadədən (1513) üstün olub. 18 yaşlı zəka sahibimiz Sadiq Qarayev (2122) isə türkiyəli qrossmeyster Kıvanc Haznədaroğlu (2425) ilə “sülh” bağlayıb.

Bu tur beynəlxalq usta İsmayıl Şahəliyev (2386) qrossmeyster Vüqar Rəsulovla (2445) xalları yarı bölüb. İranlı FIDE ustası Morteza Əsgəri (2244) ilə Cahandar Azadəliyevin (2088) də görüşündə eyni nəticə qeydə alınıb. Turnirin bir nömrəli şahmatçısı iranlı qrossmeyster Şahin Lorparizangeneh (2502) Rəşad Həsənovdan (2142) üstün olub. Fariz Əhmədov (2182) isə Tunar Davudovu (1816) məğlub etməyi bacarıb. Azərbaycanlı FIDE ustası Rəşad Zeynallı (2226) bu turu da məğlub başa vurub. O, Murad Mehdizadə (1564) ilə görüşdə ağ-qara taxtanı məğlub tərk edib.

Hazırda turnir cədvəlinə 7,5 xalla İsmayıl Şahəliyev başçılıq edir. Vüqar Rəsulov və Fariz Əhmədov hərəyə 7 xalla ikinci və üçüncü pillələri paylaşırlar.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkilatçılığı ilə keçirilən və mayın 14-dək davam edəcək beynəlxalq turnirdə Azərbaycan, İran, Türkiyə və Ukraynadan olmaqla, ümumilikdə, 214 zəka sahibi mübarizə aparır. Turnirdə muxtar respublikanı 81 zəka sahibi təmsil edir.



## Həndbol üzrə yoldaşlıq görüşü

Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbinin meydançasında dostluq və idman əlaqələrinin gücləndirilməsi məqsədilə həndbol üzrə yoldaşlıq görüşü keçirilib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən yoldaşlıq görüşündə Qızlar Liseyi və Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin qız komandaları iştirak edib. Açılış mərasimində çıxış edənlər muxtar respublikada idman sahəsində görülən işlərdən, qazanılan uğurlardan danışaraq bildiriblər ki, bugünkü görüşün keçirilməsində məqsəd qızları idmana cəlb etməkdən ibarətdir.

Görüş 11:5 hesabı ilə Qızlar Liseyinin komandasının qələbəsi ilə başa çatıb.

Sonda hər iki komandaya və komanda üzvlərinə təşkilatçıların diplom və fəxri fərmanları təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

## Fövqəladə halların qarşısının alınması diqqətdə saxlanılır

*Ötən ay Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və onun struktur qurumları tərəfindən muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulan vəzifələrin icrası təmin edilib.*



Hesabat dövründə Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzində “Naxçıvan Sement Zavodu” Məhdud Məsuliyyətli Cəmiyyətində fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı idarəetmənin təşkili” və Naxçıvan Beynəlxalq Hava Limanında “Obyektdə baş verən yanğının söndürülməsi, bununla bağlı xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması” mövzularında taktiki-xüsusi təlimlər keçirilib.

Standartların tələblərinə uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının, digər texniki avadanlıqların istismarına yol verilməməsi üçün aidiyyəti qurumların əməkdaşları ilə birgə ticarət obyektlərində təkrar baxış-yoxlamalar keçirilib və sahibkarlar əvvəlcədən məlumatlandırılıb. İdarə və təşkilatlara məxsus qazanxanalara baxış olub, qazdan təhlükəsiz istismar edilməsinə nəzarət edilib, yanğın-partlayış və dəm qazı təhlükəsizliyinə dair maarifləndirici söhbətlər aparılıb.

11 təhlükə potensiallı obyektdə texniki təhlükəsizliyə əməl olunması yoxlanılıb, 20 müəssisədə texniki təhlükəsizliyin təmin edilməsi məqsədilə maarifləndirmə-profilaktika işləri görülüb. Yanğın təhlükəsizliyinin etibarlı təmin olunması və yanğına qarşı vəziyyətin yaxşılaşdırılması məqsədilə 428 obyektdə yoxlamalar aparılıb. Aparılan reydlər zamanı 6 min 173 yaşayış evinə baxış keçirilib, yanğın cəhətdən təhlükəli olan 8 yaşayış evində elektrik xətti izolyasiya olunub, 139 qaz cihazının şlanqı qısaldılıb, 47 yaşayış evində təbii qaz sızması aradan qaldırılıb, 1 standarta uyğun olmayan qaz sobasının, 15 nasaz şofben tipli suqızdırıcının və 273 tezqatlanan tüstü borusunun istismarı dayandırılıb. Aparılan profilaktik tədbirlərin nəticəsi olaraq dəm qazı zəhərlənməsi baş verməyib.

Hesabat ayında əhalinin kütləvi toplaşdığı bütün növ xidmət və ticarət obyektlərində fövqəladə hadisələrin və qəza risklərinin müəyyən edilməsi və təhlükəsizlik qaydalarının yoxlanılması məqsədilə ticarət mərkəzlərində, ictimai iaşə obyektlərində və yanacaqdoldurma məntəqələrində yanğın təhlükəsizliyi tələblərinin yerinə yetirilməsi vəziyyətinə baxış keçirilərək maarifləndirici söhbətlər aparılıb. Naxçıvan şəhərində fəaliyyət göstərən 12 ictimai iaşə obyektində qaz təsərrüfatında texniki təhlükəsizlik qaydalarının tələblərinə əməl olunmasına nəzarət edilib. İstehsal olunan tikinti materiallarından nümunələr götürülərək standartlara uyğunluğu yoxlanılıb.

Ay ərzində Şahbuz rayonunda Ağbulaq İstirahət Mərkəzi və Biçənək kəndinin yaşıllıq zolaqlarında zərərverici həşəratların qarşısının alınması məqsədilə 536 min kvadratmetr ərazidə dezinfeksiya işləri aparılıb. *“112”* qaynar xəttinin fasiləsiz fəaliyyəti təmin olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Məmmədov Nadir Səyyad oğlunun adına olan $56^{A}$, $56^{B}$, $56^{C}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 417